## BJF Jurnalist Davranışının Prinsipləri Haqqında Bəyannamə

Beynəlxalq Jurnalistlər Federasiyasının (BJF) II Ümumdünya Konqresində (Bordo, 25-28 aprel 1954-cü il) qəbul edilmiş; BJF-nin XVIII Ümumdünya Konqresində (Helsinki, 2-6 iyun 1986-cı il) düzəlişlər edilmişdir.

Beynəlxalq Bəyannamə informasiyanın əldə edilməsi, ötürülməsi, yayılması və şərhi, hadisənin təsviri sahəsində Jurnalistlərin peşəkar davranışının standartı kimi bəyan edilir.

1. Jurnalistin ən ümdə vəzifəsi həqiqətə və cəmiyyətin həqiqəti bilmək hüququna hörmət etməkdir.
2. Peşəkar fəaliyyətini həyata keçirərkən Jurnalist informasiyanın qərəzsiz toplanması və yayımı zamanı azadlıq prinsiplərini, qərəzsiz şərh və tənqid hüquqlarını qorumağa borcludur.
3. Jurnalist yalnız mənbəyi ona məlum olan informasiyanı verməlidir. Jurnalist vacib informasiyaya laqeyd qalmamalı, yaxud sənədləri saxtalaşdırmamalıdır.
4. İnformasiya, fotoşəkil və sənədlər alarkən Jurnalist yalnız vicdanlı metodlardan istifadə etməlidir.
5. Jurnalist ciddi ziyana səbəb ola biləcək informasiyanın düzəldilməsi və ya təkzibi üçün əlindən gələn hər şeyi etməlidir.
6. Jurnalist peşə sirrini qorumalı və informasiyanın mənbəyini açmamalıdır.
7. Jurnalist KİV vasitəsilə yayılan diskriminasiyaya çağırışların nə qədər təhlükəli olduğu barədə özünə hesabat verməli, irq, cins, seksual meyl, dil, din, siyasi, yaxud başqa görüşlər, milli və ictimai mənşə əsasında diskriminasiyanın qeyri-ixtiyari təşviqindən qaçmaq üçün mümkün olan hər şeyi etməlidir.
8. Jurnalist

   -plagiatı;
   -faktları bilərəkdən təhrif etməyi;
   -böhtanı, təhqiri, əasalandırılmamış ittihamı;
   -bu və ya digər materialı dərc etmək (dərc etməmək) üçün istənilən formada rüşvət almağı ciddi peşə pozuntusu saymalıdır.
9. Bu yüksək ada layiq olan Jurnalist yuxarıda göstərilən prinsiplərə vicdanla əməl etməyi özünə borc bilir. Öz ölkəsinin qanunvericilik çərçivəsində hərəkət edən Jurnalist peşəkar məsələlərin həlli zamanı, o cümlədən hökumətin və ya digər məsul şəxslərin bu cür məsələlərə müdaxiləsi zamanı yalnız öz həmkarlarının verəcəyi qərarı qəbul edir.